# İçindekiler İçindəkilər


Aa ... 1-53
Bb ... 54-81
Cc ... 82-99
Çç ... 100-105
Dd ... 106-132
Ee ... 133-149
Ff ... 150-161
Gg ... 162-175
Hh ... 176-199
Iı ... 200-201
İi ... 202-231
Jj ... 232-234
Kk ... 235-280
Ll ... 281-289
Mm ... 290-340
Nn ... 341-354
Oo ... 355-365
Öö ... 366-373
Pp ... 374-392
Qq ... 393-394
Rr ... 395-411
Ss ... 412-461
Şş ... 462-470
Tt ... 471-518
Uu ... 519-524
Üü ... 525-528
Vv ... 529-545
Ww ... 546
Xx ... 547
Yy ... 548-563
Zz ... 564-570

# Aa

**a contrario** Faktın və ya hadisənin əks arqumentlərlə sübut edilməsi.

**a dato** Hər hansı tarixdən etibarən.

**a fortiori** İlkin olaraq, əvvəla.

**a gratia** Ödənişsiz, pulsuz, xeyriyyə məqsədi ilə edilən.

**a jour** Dəqiq vaxtında, gecikdirilmədən. A jour.

**a la carte** Kart vasitəsi ilə; Restoranlarda menyu üzrə sifariş vermək.

**a libellis** Hökmdara ünvanlanmış yazılı ərizə və müraciətlərə nəzarət edən məmur.

**a limine** İlk öncə; Mətləbə keçmədən; Məhkəmə tərəfindən əsassız iddai ərizəsinə baxılmaqdan imtina edilməsi.

**a mensa et thoro** Nikahın pozulmaması şərti ilə ərlə arvadın məhkəmə qərarı əsasında ayrı yaşamaları; Müvəqqəti olaraq ayrı yaşamaq; Ayrılıq.

**a parte rei** Həqiqi; Maddi sübutu olan.

**a posteriori** Hadisənin nəticəsi əsasında onun səbəbinin müəyyən edilməsi; Nəticədən səbəbə doğru; Nəticə ilə əlaqədar; Sonrakı hadiəslərə aid. Ant. A. Priori.

**a posteriori bilgi** Təcürbə əsasında əldə olunmuş məlumat və ya bilik.

**a priori** İlkin; İlkin hadisə ilə bağlı; Ant. A posteriori.

**a propos** Bununla əlaqədar.

**A tipi yatırım fonu** İnvestisiya fondlarının nizamnamələrində və əsasnamələrdə göstərilmək şərti ilə qiymətli kağızların dəyərinin mütəmadi olaraq ən azı 25%-nin dövlət əmlakının özəlləşdirilməsi prosesində iştirak edən hüquqi şəxslər daxil olmaqla Türkiyədə təsis olunmuş ortaqlıqların səhmlərinə investisiya qoyan fondlar və ya ortaqlıqlar.

**A tipi yatırım ortaklığı** Baxın: A tipi yatırım fonu.

**a.d.** Baxın: Ante diem, Müəyyən olunmuş gündən əvvəl.

**a.m.** Baxın: Ante meridiem, a.m. Günortadan əvvəl; gecə saat 24:00-dan günorta saat 12:00-dək olan zaman kəsiyi. Antonimi: Post meridiem.

**a'bad** Qullar, nökərlər, kölələr.

**a'dat** Əmanət hesabında faizə görə əldə olunacaq dividendin günlərin sayının hasili nəticəsində əldə olunan rəqəm; Cari hesab və əmanət hesabında ilkin vəsaitin faif üzrə gəlir gətirəcəyi günlərin sayının hasili nəticəsində əldə edilən rəqəm.

**âb** Köhnə dildə istifadə olunan fars dilindən götürmə "su" mənasını verən söz, "ab-ı həyat" kimi.

**ab agendo** Qabiliyyətsiz; Hüquq qabiliyyəti olmayan şəxs.

**ab ante** Daha əvvəl gələn.

**ab antiquo** Qədimdən bəri.

**ab epistolis** Yazar; katib.

**ab initio** İlk vaxtdan bu günə kimi.

**ab intestato** Qanun üzrə vərəsə; Vəsiyyətnamə olmadan qanun üzrə vərəsələrin mülkiyyətinə miras əmlakın keçməsi.

**ab invito** İcazəsiz; İradənin əksinə.